**UOT 81᾽41**
**https://doi.org/10.59849/2218-4783.2024.2.183**

**CƏMİLƏ MƏHƏRRƏMOVA**

# BABƏK VƏ ŞAHBUZ RAYONU TOPONİMLƏRİNDƏ KƏNGƏRLİ TAYFA ADININ İZLƏRİ

*Məqalədə Kəngərli tayfa adı ilə bağlı yaranan Babək və Şahbuz rayonuna daxil olan toponimlərdən və bu toponimlərin etnolinqvistik təhlilindən bəhs olunur. Tayfa adları ilə bağlı yaranan toponimlər etnotoponim hesab olunur. Etnonim səciyyəli toponimlərin yaranmasında qədim türk tayfa, nəsil, xalq, tirə, qəbilə adları əsas rol oynayır. Ərazidə mövcud olan Kəngərli tayfa adı ilə sıx bağlı olan bu toponimlərin, xüsusilə də oykonimlərin qədim mənbələrdə mövcudluğu araşdırılmış və bu faktlar məqalədə öz əksini tapmışdır. Burada Babək və Şahbuz rayonuna daxil olan Kəngərli tayfa adı ilə bağlı yaranan-etnonim səciyyəli toponimlərdən bir neçəsi (Didivar, Xal-xal, Keçili, Sələsüz, Türkeş) etnolinqvistik təhlili aparılmışdır.*

**Açar sözlər:** *Şahbuz, Babək, Kəngərli, etnotoponim, oykonim, toponim, Didivar, Xal-xal, Keçili, Sələsüz, Türkeş.*

**Giriş**. Naxçıvan ərazisi qədim zamanlardan müxtəlif xalqların, tayfaların, qəbilə və nəsillərin yaşayış məskəni olduğu üçün bu xüsusiyyətlər bölgənin toponimlərində də öz təsirini göstərmişdir. Toponimlər dilimizdə mövcud olan söz qrupları əsasında yaranmış, məna əsasına görə müxtəlif yollarla formalaşmışdır. Onların bir çox hissəsi uzaq tarixi keçmişimizlə, bir qismi isə son dövrlərə aid olan dil faktlarıdır. Coğrafi obyektlərə ad verərkən obyektlərin müəyyən əlamət və xüsusiyyətləri nəzərə alınır ki, onların daha çoxu qədim türk tayfa, nəsil, xalq, tirə, qəbilə adları əsasında formalaşır.

**Əsas.** Naxçıvanda ta qədimdən yaşayan güclü tayfa ittifaqlarından biri də Kkəngərli tayfalarıdır. Bu tayfalar və onların müxtəlif tirələrinin yaşadığı ərazilər Naxçıvanın geniş bir hissəsini əhatə edir. V.Qriqoryev Naxçıvan dairəsinin əhalisindən danışarkən qeyd edir: "Diyarbəkirdən gəlmiş kəngərli tayfaları öz döyüşkənliyi ilə digər tayfalardan fərqlənirlər. Dairə üzrə onlar 920 həyətdə yaşayırlar və müxtəlif tayfa və ya nəsillərə bölünürlər" [7, s. 31]. Daha sonra müəllif kəngərli tayfalarının adlarını sadalayır, onların yaşadıqları kəndləri göstərir: Yurtçu (Cəhri kəndində), Gümüşlü (Gaurarx, Xok, Şahtaxtı, Gildəsər kəndlərində), Xalxallı (Vayxır kəndində), Qaraxanbəyli (Vayxır kəndində), Ağabəyli, Cığataylı, Qaracalı, Billici, Qaratulaqlı, Gecələr, Sarvanlar, Şahbanlı, Əlixanlı (Naxçıvan şəhərində), Ərovanlı (Dizəçi Kərimbəy kəndində), Salayçı (yarısı şəhərdə, digər yarısı Nəhəcir, Külüs, Mahmudoba kəndlərində), Qızıllı (Kültəpə kəndində), Pirxaxanlı (Qahab kəndində), Qızıl Qışlaqlı (Bulqan kəndində), Kəlfirli (Tirkeş, Sələsüz kəndlərində), Qarabağlar (Qarabağlar kəndində) [7, s. 32].

K.N.Smirnov qeyd edir ki, Nax yurdunda türk tayfalarından əsasən bayat, kəngərli və cavanşirlər məskunlaşmışlar. O, kəngərlilərin Qafqaza, o cümlədən Naxçıvan ərazisinə əsrlər öncə gəldiyini, hətta bir rəvayətə görə, onların min il bundan əvvəl cavanşirlər tayfası ilə birlikdə Zaqafqaziyanı işğal etmək üçün Qarabağ və Nax yurduna gəldiyini yazır. Rəvayətə görə, onlar Türküstan ərazisindən – Amudərya və Sərdərya (Seyhun və Ceyhun) arasındakı torpaqlardan köçüb gəlmişlər [9, s. 12]. Bu tayfaların Naxçıvanın idarəçiliyində rolundan bəhs edən K.Smirnov yazır ki, Naxçıvanda, demək olar ki, bütün bəy soyadları Kəngərli nəsillərinin adlarından əmələ gəlmişdir [9, s. 26].

Beləliklə, XIX-XX əsr mənbələrində qeydə alınmış Didivar, Xalxal, Keçili, Sələsüz, Türkeş, Kələsir oykonimləri kəngərli tayfalarının adlarını özündə saxlayan yer-yurd adlarımızdandır.

**Didivar**. Hazırda Babək rayonunda kənddir. XX əsrdə Şərur-Dərələyəz qəzasına aid kənd olmuşdur [8, s. 120]. Mənbələrdə *Didvəng, Didavar* variantlarına da rast gəlirik [8, s. 120; 10, s. 494]. K.N.Smirnov *Diduvar* və ya *Dedivar* şəklində qeyd edir. Tədqiqatçı sözün mənasını “çoxdanışanlar” kimi izah edir [9, s. 52].

Q.Qeybullayev və B.Budaqovun fikrincə, toponim qədim fars dilində *dida* – “qala” və *var* – “yer” sözlərindən ibarətdir [4, s. 47]. Digər bir mənbədə göstərilir ki, *didi* fars dilində “görüş, görüşmə”, *var* isə “yer, yurd, məskən” deməkdir və Didivar “iki çayın görüşdüyü yerdə kənd” mənasında işlənir [1, s. 233]. Tədqiqatçılar kənd adının kəngərli nəsil adı ilə bağlı yaranması ehtimalını nəzərdən qaçırmışlar. Belə ki, K.N.Smirnovun da adını çəkdiyi didivarlı tayfaları kəngərli soyundandır, oykonim nəsil adı əsasında adlandırılmışdır.

**Xal-xal.** Hazırda Babək rayonunda kənddir. XX əsrin əvvəllərində Naxçıvan qəzasına aid edilmişdir [8, s. 288]. Qeyd edək ki, XX əsrin əvvəllərində Nuxada Xalxal kəndi və dərəsi (uşelye), Xal-xalçay çayı, Aleksandropol, Sürməli, Novobayazid qəzalarında Xalxalı dağ adları qeyd olunmuşdur [8, s. 289]. V.Qriqoryev kəndin digər adının Aşağı Məzrə olduğunu qeyd edir [7, s. 138]. K.Smirnov kənd adını Xalxalı şəklində qeyd edir [9, s. 15] və burada kəngərlilərin yaşadığını yazır. Tədqiqatçı Naxçıvan arxivindən əldə edilmiş dəftərə əsasən 28 kəngərli nəslinin adını çəkir və burada kəngərlilərə aid xalxalı nəslinin olduğunu da göstərir [9, s. 15]. Fikrimizcə, toponim kəngərli nəsil adlarından olan xalxalılarla bağlı yaranmışdır. Kənd adı sonradan Xalxal şəklində işlənmişdir. “Xalxal” Babək rayonu ərazisində, Naxçıvançayın sahilində yerləşən kənd adıdır. Bu adda oykonimlər XIII əsrdə indiki İran, XIX əsrdə Naxçıvan və Gürcüstan ərazilərində qeydə alınmışdır. Xalxal toponiminin tarixi bizim eranın ilk yüzilliklərinə aid edilir. Bu haqda danışan T.Hacıyev yazır ki, qərb qrupu dialektlərimizdə “mal-qara saxlanan daldanacaq”, “koma”, “xırda yaşayış yeri” mənasında işlənən “xalxal” sözü eramızın əvvəllərində hunlar tərəfindən tikilən Xalxal şəhərinin adı ilə bağlıdır. Bu şəhər haqqında məlumata Yaqut əl Həməvi və Həmdullah Qəzvininin əsərlərində də rast gəlirik. Digər bir müəllif M.Kalankatlının “Alban tarixi” əsərinə istinadən yazır: “Bizim eranın I minilliyində alban çarlarının indiki Qazax və Ağstafa zonasında qış iqamətgahları “Xalxal” adlanırdı. Bu söz Azərbaycan dilində sonrakı əsrlərdə də “mal ağılı”, “qışlaq”, “tövlə” mənalarında işlənmiş və bununla əlaqədar olaraq “Xalxal” kimi toponimlər yaranmışdır. Ehtimal ki, hələ V əsrdə mövcud olmuş Xalxal təkcə aran çarlarının qış iqamətgahı yox, ümumiyyətlə, aranlıların qışlağı olmuşdur”. Yuxarıdakı müəlliflərdən fərqli olaraq, M.Vəliyev (Baharlı) xalxallıları dərvişliklə məşğul olub, Səfəvilər dövründə Azərbaycana gələn, köçəri həyat tərzi keçirən, sonralar ölkənin müxtəlif ərazilərində məskunlaşan bir tayfa kimi təqdim edir. Toponimin ilkin yaranışı heyvandarlıqla bağlı olsa da, sonralar məzmununu itirmiş, zaman keçdikcə etnonim və oykonim kimi formalaşmışdır. Belə ki, XIX əsrdə Xalxallı tayfası kəngərlilərin bir qolu kimi Vayxır kəndində qeydə alınıb. Bu tayfaya məxsus ailələr kəndin indiki ərazisindən qışlaq kimi istifadə edib və zaman keçdikcə ərazini daimi yaşayış məntəqəsinə çevirmişlər. Demək, “Xalxal” Kəngərli tayfalarına məxsus kənd adıdır.

**Keçili**. Hazırda Şahbuz rayonunda kənddir. XIX əsrə aid mənbədə kənd adına Keçil şəklində rast gəlinir [10, s. 497]. XX əsrin əvvəllərində Naxçıvan qəzasında iki Keçili kəndi qeydə alınmışdır [8, s. 164]. K.N.Smirnov kənd adını “keçisaxlayanlar” kimi izah edir [9, s. 52].

*Keçili* etnonim mənşəli toponimdir. Etnonimin izahına gəldikdə isə onu demək olar ki, *keçi* türkdilli xalqlarda bəzi tayfaların onqonu sayılırdı. Keçi onqonu ilə bağlı "Dədə Qorqud" dastanında hadisələr vardır [5, s. 14]. Türklərdə onqonların sonradan tayfa adına çevrilməsi tez-tez müşahidə olunan hallardandır. Ağqoyunlu və Qaraqoyunluları buna misal göstərə bilərik. Keçili etnonimi də keçi onqonu əsasında əmələ gəlmişdir.

**Sələsüz.** Hazırda Şahbuz rayonunda kənddir. Kənd adı mənbələrdə *Salasuz / Sələsus* variantlarında qeyd olunub. K.N.Smirnov sözün "silahsız" mənasında işləndiyini ehtimal edir [9, s. 53]. Lakin bu fikrin heç bir elmi əsası yoxdur.

Bir sıra tədqiqatçıların fikrincə, oykonim türk dillərində "künc", "yer", "bucaq", "hissə" mənalarında işlənən *sələ* və "bucaq yer", "su çıxan yer" mənasında işlənən *sos* sözünün birləşməsi yolu ilə əmələ gəlmişdir. Sələsuz kəndində bulaqların çoxluğu bu fikri təsdiqləyən fakt kimi göstərilir [4, s. 103]. Digər bir mənbədə göstərilir ki, kənd adı Naxçıvançayın sağ qolu olan Sələsus çayının adı ilə bağlıdır. Sələsüz hidronimi Azərbaycan dilinin dialektlərində "nazik çubuqdan hörülmüş aşsüzən" mənasında işlənən *sələ* sözü və "süzmək" feilinin birləşməsi ilə yaranmışdır [1, s. 184].

**Türkeş.** Oykonim mənbələrdə "Tirkeş" və "Tirkəş" şəkillərində yazılmış və 2003-cü ildə "Naxçıvan Muxtar Respublikası şəhər və rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, Türkeş şəklində rəsmiləşdirilmişdir. Bəzi tədqiqatçılar Tirkeş sözünü yer səthinin quruluşu ilə bağlı "çay qollarının qovuşduğu yer" mənasında açıqlayır. Bu fikirdən fərqli olaraq, Q.Qeybullayev oykonimin mənşəyini Tibet və Çin ərazilərində yaranmış Türkeş xaqanlığının adı ilə əlaqələndirir və türkeşlərin qədim tayfa birləşməsinə aid olduğunu, başqırd, tatar, tuva, altay dillərində də bu tayfa adının qeydə alındığını yazır [4, s. 38]. Müəllif digər əsərində isə məsələyə aşağıdakı şəkildə yanaşır: "VII-VIII əsrlərdə Qərbi türk xaqanlığına daxil olan bir tayfa "Qurqəş" ("Tirqəş") adlanırdı. VIII əsrin sonlarında bu tayfa türk xanlığına son qoymuş və bir müddət öz xaqanlığını yaratmışdır. Sonrakı əsrlərdə siyasi hadisələrlə əlaqədar müxtəlif ərazilərə köçmüşlər. Tatarların və başqırdların içərisində "Tirkəş" adlı tayfalar vardır. Dağlıq Altayda bir türkdilli etnoqrafik qrup indi də "tirkəş" adlanır. Ehtimal ki, türkəşlər monqolların tərkibində Azərbaycana gəlmişlər".

Fikrimizcə, Şahbuz rayonu ərazisindəki Türkeş oykonimi Çin, Tibet və Dağlıq Altayda yaşayan eyniadlı tayfalarla birbaşa bağlı deyil. Əvvəla, ərazidə bu etnosla bağlı digər iz görünmür və ya tarixi mənbələr türkeş tayfalarının Naxçıvana gəlişi haqda da heç nə demir. Monqolların tərkibində Azərbaycana, o cümlədən Naxçıvana gəlmiş türkeşlərin birbaşa bu kəndə köçmə ehtimalı da azdır. Belə qənaətə gəlirik ki, toponim Naxçıvan ərazisi, burada baş verən ictimai-siyasi hadisələrlə bağlı yaranmış, kəngərlilərə məxsus tayfa adı əsasında formalaşmışdır. Kəngərlilərin kəlfirli tirəsi tarixən bu kənddə yaşamış və kəndin bütün əhalisi bu tayfaya məxsus olmuşdur. Türkeşlər vaxtilə Kəngərli tayfaları ilə qaynayıb-qarışmış və kəlfirli tayfası ilə qarışıq bir tirə yaranmışdır. Ona görə də "Tirkeş" adını kəngərlilərə məxsus tayfa (tirə) qolu kimi açıqlamaq daha inandırıcıdır. Bu faktı hazırda kənddə kəlfirlilərə məxsus tayfa nəsillərinin yaşaması da təsdiqləyir.

**Nəticə.** Naxçıvan ərazisinin Babək və Şahbuz rayonlarında Kəngərli tayfasına məxsus olan (etnonim səciyyəli) toponimləri müəyyənləşdirmək üçün müraciət etdiyimz qədim mənbələr bu ərazidə yaşamış tayfaların, qəbilələrin bütövlükdə Azərbaycan türkləri olduğunu, eləcədə bu toponimlərin həmin tayfaların dil vahidləri hesabına yarandığını sübut edir. Bu vahidlərinin bir çoxu bizim qədim dövrlərlə səsləşir ki, bu da dilimizin əski dövrlərinin tədqiqi

istiqamətində xüsusi əhəmiyyət daşıyır. Sonda belə elmi nəticəyə gəlirik ki, Babək və Şahbuz rayonlarındakı Kəngərli tayfasına məxsus olan (etnonim səciyyəli) toponimlər də milli mənşəli adlardır və bu ərazilərin tarixini, qədimliyini, milliliyini özündə əks etdirir.

## ƏDƏBİYYAT


1. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: 2 cilddə. II c., Bakı: Şərq-Qərb, 2007, 304 s.
2. Bağırov A. Naxçıvanın oykonimləri. Bakı: Nurlan, 2008, 336 s.
3. Budaqova Q. Naxçıvan Muxtar Respublikasının toponimləri. Bakı: Nafta Press, 1988.
4. Budaqov B., Qeybullayev Q. Naxçıvan diyarının yer yaddaşı. Bakı: Nafta Press, 2004, 20 s.
5. Eyvazlı Ə. Naxçıvan qədim türk torpağıdır. Bakı: Elm, 2006, 154 s.
6. Qeybullayev Q.Ə. Naxçıvanın bəzi oykonimləri haqqında // Elm və həyat, 1977, № 6, s. 12-14.
7. Григорьев В.В. Статистическое описание Нахичеванской провинции. Санкт-Петербург, 1833, 264 с.
8. Пагирев Д.Д. Алфавитный указатель к пятиверстной карте Кавказского края. Тифлис: Типография К.П.Казловского, 1913, 530 с.
9. Смирнов Н.К. Материалы по истории и этнографии Нахичеванского края (Тифлис, 1934 г). Баку: Озан, 1999, 156 с.
10. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург, 1852, 644 с.
11. Vəliyev (Baharlı) M. Azərbaycan: Coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat. Bakı: Azərnəşr, 1993, 208 s.


***AMEA Naxçıvan Bölməsi***
***E-mail: CemileNihatMeherremova@gmail.com***

**Jamila Maharramova**

## TRACES OF THE NAME OF THE KANGARLI TRIBE IN THE TOPONYMS OF BABEK AND SHAKHBUZ

The article looks at toponyms in the Babek and Shakhbuz districts that are etymologically related to the name of the Kengerli tribe and provides an ethnolinguistic analysis of these toponyms. Toponyms that arose from the names of tribes are considered ethnotoponyms. The names of ancient Turkic tribes, generations, peoples, tribes, clans play a key role in the origin of toponyms with ethnonymic characteristics. The existence of these toponyms, especially oikonyms, closely related to the name of the Kengerli tribe that existed in this area, is studied in ancient sources, and these facts are reflected in the article. Here, an ethnolinguistic analysis of some characteristic ethnotoponyms of the Babek and Shakhbuz districts (Didivar, Khalkhal, Kechili, Selasuz, Turkesh) associated with the name of the Kengerli tribe has been performed.

**Keywords:** *Shakhbuz, Babek, Kangarli, ethnotoponym, oikonym, toponym, Didivar, Khal-khal, Kechili, Salasuz, Turkesh.*

**Джамиля Магеррамова**

## СЛЕДЫ НАЗВАНИЯ ПЛЕМЕНИ КЕНГЕРЛИ В ТОПОНИМАХ БАБЕКА И ШАХБУЗА

В статье рассматриваются топонимы в Бабекском и Шахбузском районам, этимологически связанные с названием племени Кенгерли, прогведен этнолингвистический анализ этих топонимов. Топонимы, возникшие от названий племен, считаются этнотопонимами. Названия древнетюркских племен, поколений, народов, колен, родов играют ключевую роль в создании топонимов с этнонимическими характеристиками. Существование этих топонимов, особенно ойконимов, тесно связанных с названием существовавшего в данной местности племени Кенгерли, исследовано в древних источниках, и эти факты нашли отражение в статье. Здесь был проведен этнолингвистический анализ некоторых характерных этнотопонимов Бабекского и Шахбузского районов (Дидивар, Хал-хал, Кечили, Селасуз, Тюркеш), связанных с названием племени Кенгерли.

**Ключевые слова:** *Шахбуз, Бабек, Кенгерли, этнотопоним, ойконим, топоним, Дидивар, Хал-хал, Кечили, Саласуз, Туркеш.*

*(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 09.09.2024**
**Son variant 14.09.2024**